**“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin**

# NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsi (bundan sonra – TƏBİB) “Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanına əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) tərəfindən yaradılan və tabeliyinə verilən dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin idarə edilməsini və bu sahədə nəzarəti həyata keçirən qurumdur. Bu nizamnamə TƏBİB-in ikinci redaksiya nizamnaməsidir.

1.2. TƏBİB öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, habelə Agentliyin İdarə Heyətinin qərarlarını, Agentliyin İdarə Heyəti sədrinin əmr və sərəncamlarını rəhbər tutur.

1.3. TƏBİB öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. TƏBİB ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

1.5. TƏBİB-in müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, TƏBİB-in əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. TƏBİB məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir. Agentliyin işçilərinin TƏBİB-i məhkəmədə nümayəndə qismində təmsil etmək hüququ vardır.

1.7. TƏBİB Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşir.

## 2. TƏBİB-in fəaliyyətinin məqsədi və istiqamətləri

2.1. TƏBİB-in fəaliyyətinin əsas məqsədi tabeliyində olan tibb müəssisələrində əhalinin sağlamlığının qorunması üçün tibbi xidmətlərin təşkilini təmin etməkdən və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər görməkdən ibarətdir.

2.2. TƏBİB aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.2.1. tabeliyində olan tibb müəssisələrinin idarə edilməsini və bu sahədə nəzarəti həyata keçirmək;

2.2.2. tibbi xidmətlər sahəsində dövlət siyasətinə və qüvvədə olan qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək;

2.2.3. əhalinin sağlamlığının qorunması sahəsində əhali üçün əlverişli şərtlər yaratmaq və tibb müəssisələrinin fəaliyyətini icbari tibbi sığorta sisteminin tələblərinə uyğun formalaşdırmaq;

2.2.4. tibbi xidmətlərin keyfiyyətini müasir tələblərə uyğunlaşdırmaq.

## 3. TƏBİB-in vəzifələri və hüquqları

3.1. TƏBİB bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. tabeliyində olan tibb müəssisələri vasitəsilə əhaliyə tibbi yardımın göstərilməsini təmin etmək;

3.1.2. tabeliyində olan tibb müəssisələrinin idarə edilməsini və bu sahədə nəzarəti həyata keçirmək;

3.1.3. əhalinin tibbi yardım almaq sahəsində hüquqlarını təmin etmək, xəstəliklərin erkən aşkarlanması və qarşısının alınması məqsədilə tədbirlər görmək;

*3.1.3-1. icbari tibbi sığorta münasibətləri çərçivəsində tabeliyində olan müalicə-profilaktika müəssisələrini dərman, bakterioloji, virus preparatları və tibbi təyinatlı digər məmulatlarla təmin etmək;*

3.1.4. əhalinin sağlamlığının qorunması məqsədilə səhiyyə sahəsində müvafiq qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların həyata keçirilməsində iştirak etmək;

3.1.5. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və TƏBİB-in səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.6. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin əhalinin sağlamlığının qorunması sahəsində fəaliyyətini əlaqələndirmək;

3.1.7. elektron xidmətlərini "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.8. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.9. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, işçilərinin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.10. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.11. TƏBİB-ə ayrılan dövlət büdcəsindən ayırmalardan, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, ianə, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.12. dövlət sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.13. TƏBİB-in informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.14. TƏBİB-in strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar müvafiq təkliflər vermək;

3.1.15. tabeliyində olan tibb müəssisələrinin idarə olunmasında informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edilməsini, o cümlədən həmin tibb müəssisələrinin icbari tibbi sığortanın məlumat bazasına inteqrasiyasını təmin etmək;

3.1.16. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, əhalinin sağlamlığının qorunması sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.17. əhalinin sağlamlığının qorunması sahəsində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması üçün peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək, habelə tabeliyində olan tibb müəssisələrinin ixtisaslı kadrlarla təmin edilməsi istiqamətində tədbirlər görmək;

3.1.18. tabeliyində olan tibb müəssisələrinin mütəxəssislərin peşə biliyi və bacarıqlarının təkmilləşdirilməsini təşkil etmək, onların ixtisas səviyyələrinin artırılması ilə bağlı tədbirlər görmək;

3.1.19. tibbi xidmətlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək, demoqrafik prosesin və əhalinin sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə tibbi statistika və məlumat-analitik bankını yaratmaq;

3.1.20. tabeliyində olan tibb müəssisələrində həkim sirri ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilməsinə nəzarət etmək, o cümlədən həkimlərin etik davranış qaydalarını müəyyən etmək;

3.1.21. tabeliyində olan olan tibb müəssisələrinə münasibətdə Agentliyin vahid tənzimləmə ilə bağlı qərar, əmr, sərəncam və göstərişlərini icra etmək və icra vəziyyəti barədə Agentliyə məlumat vermək;

3.1.22. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. TƏBİB-in öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

3.2.1. əhalinin sağlamlığının qorunması sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. tabeliyində olan tibb müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi, fəaliyyətinin optimallaşdırılması, habelə daha səmərəli idarəetmə üsullarının tətbiq edilməsi ilə bağlı təkliflər vermək;

3.2.3. əhalinin sağlamlıq vəziyyətini öyrənmək, əhali arasında infeksion və qeyri – infeksion xəstəliklərin rast gəlmə tezliyini və xəstələnmə göstəricilərini toplamaq, təhlil etmək, müvafiq tədbirlər planı hazırlamaq və icra etmək;

3.2.4. tabeliyində olan tibb müəssisələrinin kadr təminatı ilə bağlı ehtiyaclarını öyrənmək və bu istiqamətdə müvafiq tədbirlər görmək;

3.2.5. əhalinin sağlamlığının qorunması sahəsində beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.7. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.9. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.11. tabeliyində olan tibb müəssisələrinin əmr və sərəncamlarını ləğv etmək, digər təşkilatların qanunvericiliyə zidd olan və əhalinin sağlamlığına mənfi təsir göstərən qərarların icrasının dayandırılması və ləğv edilməsi haqqında müvafiq orqanlar qarşısında vəsatət qaldırmaq;

3.2.12. öz işçilərini və tabeliyində olan tibb müəssisələrinin işçilərini dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.13. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.14. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. TƏBİB-in idarə olunması

4.1. TƏBİB öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. TƏBİB-i İdarə Heyəti idarə edir.

4.3. İdarə Heyəti TƏBİB-ə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi Agentliyin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və iki üzvdən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını Agentliyin İdarə Heyətinin sədrinin müəyyən etdiyi İdarə Heyətinin digər üzvü həyata keçirir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1.TƏBİB-in fəaliyyətini təşkil edir və ona nəzarət edir;

4.5.2. TƏBİB-in fəaliyyətinə dair illik hesabatı, həmçinin Agentliyin tələbi ilə rüblük hesabatları və digər sənədləri hazırlayaraq Agentliyə təqdim edir;

4.5.3. illik maliyyə hesabatlarını təsdiq edilməsi üçün Agentliyə təqdim edir;

4.5.4. TƏBİB-in inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını təsdiqlənməsi üçün Agentliyə təqdim edir;

4.5.5. Agentlik tərəfindən (Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla) təsdiq edilməsi üçün TƏBİB-də əməyin ödənilməsi forması, əməkhaqqı fondu və işçilərinin əməkhaqları barədə, habelə TƏBİB-in əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminə dair təkliflər verir;

4.5.6. Agentlik tərəfindən təsdiq edilmiş struktur və ştat vahidlərinin ümumi sayı daxilində fəaliyyəti təşkil edir;

4.5.7. idarə, filial və nümayəndəliklərinin yaradılması üçün Agentliyə müraciət edir;

4.5.8. Agentlik tərəfindən (Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla) təsdiq edilmiş TƏBİB-in maliyyə planlaşdırılması və büdcəsi çərçivəsində fəaliyyəti təmin edir;

4.5.9. fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə onun idarə, filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq edir;

4.5.10. TƏBİB-in kənar auditorunu təyin edir və audit hesabatını qəbul edir;

4.5.11. TƏBİB-in fəaliyyətinə dair illik hesabatı dinləyir;

4.5.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;

4.5.13. TƏBİB-in daxili audit bölməsini təşkil edir, fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir;

4.5.14. Agentliyin razılığı ilə TƏBİB-in xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri TƏBİB-in aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir;

4.5.15. aidiyyəti şəxslə dəyəri TƏBİB-in aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir;

4.5.16. TƏBİB-in strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.5.17. bu Nizamnamənin 3.1.11-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.5.18. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

4.5.19. bu Nizamnamənin 3.1.4-cü və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

4.5.20. səhiyyə sisteminin idarəedilməsi və optimallaşdırılması ilə bağlı təklifləri Agentliyə təqdim edir;

4.5.21. səlahiyyətləri çərçivəsində tibbi statiststistika sahəsində işin təkmilləşdirilməsini həyata keçirir, bununla əlaqədar Agentliyə təkliflər verir;

4.5.22. əhalinin sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin təşkili formalarının təkmilləşdirilməsi ilə bağlı Agentliyə təkliflər verir;

4.5.23. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

4.6. İdarə Heyətinin iclası ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvləri çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün) səsi həlledicidir.

4.7. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə, yazılı məlumat verilir.

4.8. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.9. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. TƏBİB-in cari fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.10.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. TƏBİB-in fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.6. TƏBİB-in fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.7. TƏBİB-in vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.8. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və ştat vahidlərinin ümumi say həddi daxilində TƏBİB-in Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edilməsi üçün Agentliyə təqdim edir;

4.10.9. TƏBİB-in işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.10.10. bu Nizamnamə ilə müəyyən olunmuş hallar istisna olmaqla, TƏBİB-in, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin işçilərinin, habelə Agentliklə razılaşdırmaqla tabeliyində olan dövlət tibb müəssisələrinin və digər qurumların rəhbərlərinin və onların müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərarlar qəbul edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi ilə bağlı tədbirlər görür;

4.10.11. TƏBİB-in əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində TƏBİB-in adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.13. TƏBİB-in fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qrupları yaradır;

4.10.14. TƏBİB-in fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.15. TƏBİB-də kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.10.16. TƏBİB-də müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin iclasının gündəliyi və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol

verməməlidirlər, həmçinin Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. TƏBİB-in nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. TƏBİB-in nizamnamə fondu 100 (bir yüz) manatdır.

5.2. TƏBİB-in əmlakı nizamnamə fondundan, ona təsisçilər tərəfindən verilmiş digər əmlakdan, dövlət vəsaitlərindən, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. TƏBİB öz əmlakından yalnız Nizamnaməsi ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. TƏBİB-in balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. TƏBİB qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra TƏBİB-in, onun idarə, filial, nümayəndəliklərinin fəaliyyətindən əldə edilmiş vəsait üzərində Agentliyin razılığı ilə sərəncam vermək hüququna malikdir.

## 6. TƏBİB-in fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. TƏBİB-in fəaliyyətinə nəzarəti Agentlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada TƏBİB-in İdarə Heyəti həyata keçirirlər.

6.2. TƏBİB-in tabeliyində olan tibb müəssisələrinə münasibətdə vahid tənzimləməni (səlahiyyətləri çərçivəsində qaydaların, təlimatların və bütün tənzimləyici sənəd və qərarların qəbul edilməsini), habelə TƏBİB-in inkişaf istiqamətlərini Agentlik müəyyən edir.

## 7. TƏBİB-də uçot və hesabat

7.1. TƏBİB "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. TƏBİB "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

7.3. TƏBİB idarə, filial, nümayəndəlik, habelə tabeliyində olan qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. TƏBİB öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. TƏBİB-in yenidən təşkili və ləğv edilməsi

TƏBİB-in yenidən təşkil və ya ləğv edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilir.